

ÖMƏR SƏMƏDOV

# BU ŞƏHƏR SƏNSİZ

Məni qoy bir yana, bu şəhər sənsiz
yaman çox darıxır, yaman üzülür.
Sanki sən getdiyin həmin yollara
mən gəlməyim deyə duman süzülür.

Bir addım qabağı görə bilmirəm.
Bilmirəm aparır hara bu yollar.
Ya qovuşduracaq səninlə məni,
Ya da ki, çəkəcək dara bu yollar.

Bu qədər insafsız, vəfasız olma,
İnsan da insanı belə üzərmi?
Getdiyin  o insan sənin yolunda
Ömrünü sən gələn yola duzərmi?

Mən oldum ömrümü verdim yolunda
Üstündən basaraq əzdin qəlbimi.
Nə vaxtsa peşiman geriyə dönsən,
Gələrək qucaqla soyuq qəbrimi.

Bir dəstə sevgini çələng yıgarsan,
Qoyarsan qəbrimin üstündə qalsın.
Bu yağan yağışlar islatsın onu,
Torpaqdan süzərək qəbrimə salsın.

# TƏKLİYƏ YOL ALDIM, GƏLİB ÇATARSAN

Xəyallar yorulur, ürək bir yana,
Ürəyim də dolub sığmayır cana.
Dözmədim, Allaha şikayət etdim,
Dərd üçünmü gəldim fani dövrana?

Dostlara güvəndim, boşuna getdi,
Yıxıldim, əlimdən tutan olmadı.
Xəyanət yarımın xoşuna getdi,
Guya ki, qəlbinə yatan olmadı.

Həyatda güvənmək böyük yalandi,
Güvənmə kimsəyə, itib-batarsan.
Baxıram eşq evi onsuz virandı,
Təkliyə yol aldım, gəlib çatarsan.

Bəhanə hamının əlində hazır,
Guya ki, Öməri tamahkar bilir.
Ömər də onlara hey şeir yazır,
Dinləyib Öməri günahkar bilir.

# URƏK

Ürəkdir, pak, təmiz ayna deyil ki,
Bu üzdən o üzü görə biləsən.
Esq ilə döyünən böyük dünyadı
Çalış o dunyaya girə biləsən

Girdiyin ürəyi çalış ki, qırma,
Qırılsa, yenidən düzəltmək olmur.
Caliş ki, sevərək qoru sən onu,
Sevəndə sevgisin tükətmək olmur.

Balaca ürəkdir böyük eşqləri,
Yaşadır içində hec nəyə satmır.
Atırsan eşqini həzzin badına,
Amma ki, ürəklər sahibin atmır.

Yadlara aldanıb tora düsürsən,
Cəzasın yenə də ürəyin çəkir.
Səni sevənləri görmürsən deyə,
Yadlar da qəlbinə xəyanət əkir.

Unutma, ey insan, hec zaman dəyməz,
Yadlara inanıb könül bağlamaq.
Dəyərli sandığın dəyərsiz üçün,
Dəyərmi qəlbini üzüb dağlamaq?